**Vahid Aslan**

## Şair və Söz

Əzəldən görməyə gözüm olmayıb,
Yazıq görkəmində görünənləri;
Məddahlıq, yaltaqlıq izinə düşüb,
Şöhrət arxasınca sürünənləri.

Adam öz gözündən düşdüsə, heç nə
İllah da bu adam şair oldusa.
Şair! Şöhrət üçün sözündən keçmə!
Yıxıldın! Söz haqqı unuduldusa.

Şairin çiynində bir söz haqqı var,
Şairdi bu haqqı daşıya bilsə.
Söz onu qaldırıb Tanrılaşdırar,
Sözün işığında yaşaya bilsə.

Saraya sığınan şair ki, olub,
Şah çevirib onu öz məddahına;
Şair ki, unudur, sözdən doğulub,
Elə bil, xor baxır öz Allahına.

Şairin nəyi var sözdən savayı,
Onu da qoruya bilməsə, heç nə...
Şair! Hər sözünü demə, havayı,
Şair! Şöhrət üçün sözündən keçmə!